**Hər gün, hər saat mükəmməlliyə doğru!**

# Xəzər Universiteti

# Strateji Plan

## 2018-2023

**Xəzər Universiteti haqqında**

Xəzər Universiteti Azərbaycanda fəaliyyətə başlayan tədris dili ingilis dili olan və tələbəyönümlü yanaşmanı həyata keçirən ilk ali təhsil müəssisəsidir. Xəzər Universitetində mühəndislik, tətbiqi elmlər, iqtisadiyyat, biznes idarəçiliyi, humanitar və sosial elmlər, təhsil və digər sahələr üzrə yüksək səviyyədə kadr hazırlığı aparılır. Müxtəlif ixtisaslar üzrə magistratura və doktorantura, peşəkar inkişaf proqramları, həmçinin, Azərbaycanda ən nüfuzlu proqramlardan olan MBA proqramı universitetin strateji inkişafında mühüm yer tutur.

Xəzər Universitetində keyfiyyət həmişə diqqət mərkəzində saxlanılır. Fəaliyyətdə olduğu müddətdə, Xəzər Universitetində əsas təhsil dilinin ingilis dili olması və tətbiq etdiyi tədris proqramlarının beynəlxalq standartlara cavab verməsi, tələbələrin müasir dərs vəsaitlərindən və elektron məlumat bazalarından istifadə etməsinə, təhsillərini dünyanın aparıcı universitetlərində davam etdirməsinə, xarici universitetlərin professor-müəllim heyətinin innovativ dərslərinin təşkilinə geniş imkan verir.

Xəzər Universitetinin diplomlarının beynəlxalq arenada tanınması məzunlarımızın magistratura və doktorantura səviyyələrində təhsillərini xarici ölkələrin ən qabaqcıl ali məktəblərində davam etdirməsinə və iş imkanları əldə etməsinə şərait yaradır.

Ali təhsildə keyfiyyətin təminatı mərkəzi ölkəmizdə 1998-ci ildə ABŞ və Avropanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində bu sahədə fəaliyyətə başlayan ilk qurumdur.

Çoxsaylı xarici universitetlər və digər qurumlarla beynəlxalq əlaqələrin qurulması, ikili diplom proqramının reallaşdırılması, müxtəlif beynəlxalq layihələrin, tələbə-müəllim mübadilə proqramlarının həyata keçirilməsi Xəzər Universitetinin beynəlmiləlləşmə strategiyasının hədəflərindən biridir.

**Missiya**

Xəzər Universitetinin missiyası ali təhsilin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, öz fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaqdır.

**Gələcəyə baxış**

Universitetin hədəfi, milli və beynəlxalq səviyyədə bütün tərəfdaşlarla çoxşaxəli əməkdaşlıq quraraq təhsil və tədqiqat sahəsindəki nüfuzu ilə tanınan dünya səviyyəli təhsil müəssisəsinə çevrilməkdir.

**Bizi birləşdirən dəyərlər**

- **Liberallıq -** tədqiqat, tədris və sosial xidmət fəaliyyətində azadlıq və bərabərlik prinsiplərinə sadiqlik.
- **Yaradıcılıq -** hər bir fəaliyyətin həyata keçirilməsinə innovativ və yaradıcı yanaşma.
- **Ömürboyu öyrənmə -** insanların ömürboyu öyrənmə marağına və fasiləsizliyə dəstək.
- **Peşəkarlıq -** fəaliyyətin mütəmadi olaraq səmərəliliyinin və etibarlılığının qüvvətləndirmək.
- **Liderlik -** tərəqqiyə yönələn mövqeyin inkişafına dəstək.

**Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planı aşağıdakı 7 istiqamətdən ibarətdir:**

1. **Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək.**
2. **Təlim tədris prosesinin davamlı inkişafını təmin etmək.**
3. **Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək**.
4. **Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirilmək.**
5. **Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat, cəlbedici təhsil məkanına çevirmək.**
6. **Tələbə mərkəzli öyrənmə mühitini daimi təkmilləşdirməklə tələbələrin daha yaxşı nəticə əldə etməsinə nail olmaq**.
7. **Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək**.

## Strateji hədəf 1: Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək.

**1.1. Elmi tədqiqat işlərinin nəticələrinin artırılması üçün insan potensialının gücləndirilməsini təmin etmək:**

1.1.1. Yüksək keyfiyyətli tədqiqatçıların işə cəlb edilməsini təmin etmək;

1.1.2. Davamlı tədqiqat işləri aparan tədqiqatçıların inkişafına dəstək olmaq;

1.1.3. Təhsilin hər bir səviyyəsində tələbələrin tədqiqat və innovasiya fəaliyyəti üçün əlverişli mühit yaratmaq;

1.1.4. Ölkədə və xaricdə impakt faktorlu jurnallarda məqalələri dərc olunan tədqiqatçıların Universitetə cəlb edilməsini təmin etmək;

1.1.5. Mövcud tədqiqatçıların ehtiyaclarını öyrənib, potensialın artırılması üçün davamlı peşəkar təlimlərin təşkil olunmasını təmin etmək;

1.1.6. Doktorant tələbələrin inkişafı üçün əlverişli şəraitin yaradılmasını, onların universitetdə tədqiqat fəaliyyətlərinin uzunmüddətli davam etdirməsi üçün dəstəkverici mühitin təşkilini təmin etmək.

**1.2. Elmi tədqiqatın inkişafına zəmin yaradan mexanizmlərin işlənib hazırlanmasını təmin etmək:**

1.2.1. Keyfiyyətli tədqiqat parametrlərini aydınlaşdırıb uyğun təlimatların hazırlanmasını təmin etmək;

1.2.2. Bütün müəllim və tədqiqatçılar, o cümlədən, laboratoriyalarda çalışan texniki heyətin yüksək hazırlığını, həmçinin təlimatların mənimsənilməsini və onların icrasını təmin etmək;

1.2.3. Keyfiyyətli tədqiqatın təbliğ-təşviq mexanizmlərinin təkmilləşdirilməsini davam etdirmək.

**1.3. Elmi tədqiqatın inkişafında departamentlərin rolunu qüvvətləndirmək:**

1.3.1. Departmentlərin tədqiqatın inkişafındakı rolunu gücləndirmək üçün daxili normativ sənədlərdə uyğun dəyişikliklər etmək;

1.3.2. Departamentlərə tədqiqat qrantlarının yazılması və alınması üçün əlverişli şərait yaradaraq onları bu işə həvəsləndirmək;

1.3.3. Departamentlərin inkişaf planına, fərdi tədqiqatçıların inkişaf ehtiyacına uyğun olaraq onları maliyyə resursları ilə dəstəkləmək və bu resursların ayrılması üçün şəffaf və ədalətli mexanizmlərin hazırlanmasını təmin etmək.

**1.4. Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək:**

1.4.1. Birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsini təmin etmək;

1.4.2. Beynəlxalq tədqiqat layihələrində iştirak edəcək doktorant tələbələrin və tədqiqatçıların dəstək mexanizmlərinin hazırlanmasını təmin etmək;

1.4.3. Doktorant tələbələrin və tədqiqatçıların beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında iştirakını təbliğ-təşviq etmək;

1.4.4. Doktorant tələbələrin beynəlxalq mübadilə proqramlarında əldə etdikləri nailiyyətlərin tanınma mexanizmlərinin işlənib hazırlanmasını təmin etmək.

**1.5. Tədqiqatlar zamanı yaranmış biliyin idarə edilməsini gücləndirmək:**

1.5.1. Tədqiqatdan yaranan biliyin, nəticənin qeydiyyatı və idarə edilməsi haqqında təlimat hazırlamaq;

1.5.2. Bütün departamentlərin bu təlimatlarla tanış olmasını təmin etmək;

1.5.3. Yaranmış yeni biliklərin universitetin ümumi sistemində qeydiyyatdan səliqəli və vaxtında keçməsini təmin etmək;

1.5.4. Departamentlərin tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün dəstək vermək.

## Strateji hədəf 2: Təlim tədris prosesinin davamlı inkişafını təmin etmək.

**2.1. Tələbələrin nəzəri biliklərini zənginləşdirmək, gələcək uğurlu karyerasını qurması üçün 21-ci əsr bacarıqlarını inkişaf etdirmək:**

2.1.1. Tədrisdə nəzəri biliklərinin və 21-ci əsr bacarıqlarının yetişdirilməsinin rasional tarazlığını təmin etmək;

2.1.2. Magistratura səviyyəsi üzrə təlim-tədris prosesinin tədqiqat əsaslı və tədqiqat yönümlü olmasını inkişaf etdirmək;

2.1.3. Universitetdə kadr hazırlığının ingilis dilində aparıldığını nəzərə alaraq, tələbələrin ingilis dilini mənimsəmə prosesini təkmilləşdirmək;

2.1.4. Təlim-tədris prosesində müasir texnologiyanın istifadəsinin genişləndirilməsini təmin etmək.

**2.2. Qloballaşan təhsil dünyasında yaranan imkanlara cavab olaraq, ömürboyu öyrənmə prinsiplərini dəstəkləyən innovativ təlim-tədris proqramlarını təklif etmək:**

2.2.1. Araşdırmalar nəticəsində yaranmış imkanlara cavab olaraq yeni bakalavr və magistr tədris proqramlarını hazırlamaq;

2.2.2. Yaranmış imkanlara uyğun olaraq müxtəlif peşəkar inkişaf proqramlarını hazırlayıb təklif etmək;

2.2.3. Əmək bazarının tələblərinə cavab olaraq yay/qış məktəblərini təşkil etmək.

## Strateji hədəf 3: Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək.

**3.1. Professor-müəllim və işçi heyətənin düzgün seçilməsini və davamlı təlimini təmin etmək:**

3.1.1. Elmi dərəcəsi olan, müasir səviyyədə tədqiqat aparan professor-müəllim heyətinin şəffaf və obyektiv seçilməsi üçün mexanizm hazırlamaq;

3.1.2. Təlim-tədris prosesini müasir tələblərinə uyğun təşkil etmək məqsədilə professor-müəllim heyəti üçün davamlı təlim və inkişaf proqramını təşkil etmək;

3.1.3. Bu prosesləri tənzimləyən daxili normativ sənədlərin təkmilləşdirilməsini təmin etmək;

**3.2. Yüksəksəviyyəli professor-müəllim və işçi heyətinin universitetlə uzunmüddətli əməkdaşlıqlarını təmin etmək üçün zəmin yaratmaq:**

3.2.1. Professor-müəllim və işçi heyətinin universitetlə əmək və tərəfdaşlıq münasibətlərini tənzimləyən mexanizmlər hazırlayıb təklif etmək;

3.2.2. Professor-müəllim və işçi heyətini əlverişli şərtlərlə müxtəlif yerli və beynəlxalq layihələrə cəlb etmək;

3.2.3. Professor-müəllim və işçi heyətinin əmək fəaliyyətinin dəyərləndirilmə mexanizmlərini hazırlamaq və sistemli şəkildə tətbiq etmək;

3.2.4. Professor-müəllim heyətini tədqiqat, beynəlxalq təmsilçilik, innovativ sahibkarlıq və s. universiteti təbliğ edən fəaliyyətlərini maddi və texniki dəstəklə təmin etmək;

## Strateji hədəf 4: Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirilmək.

**4.1. Beynəlxalq əməkdaşlıqların yenilənməsini, möhkəmlənməsini və yeni əməkdaşlıqların qurulmasını təmin etmək:**

4.1.1. Universitetin ixtisaslarına uyğun olaraq ikili diplom proqramlarının həyata keçirilməsini təmin etmək;

4.1.2. Tələbə mübadilə proqramlarını genişləndirib, mübadilədə iştirak edəcək tələbələrin sayını artırmaq;

4.1.3. Mübadilə proqramında iştirak edən müəllim və işçi heyətinin sayını artırmaq.

**4.2. Universitetin beynəlxalq proqramlarda, qrant müsabiqələrində və digər yarışmalarda uğurlu iştirakını təmin etmək:**

4.2.1 Beynəlxalq qrant müsabiqələrində, yarışmalarda iştirak etmək üçün dəstək sistemini qurmaq;

4.2.2. Beynəlxalq qrant müsabiqələrində, yarışmalarda iştirak sayını, qrantların sayının və mənbələrin müxtəlifliyini artırmaq.

**4.3. Universitetin beynəlxalq reytinqlərdə mövqeyini gücləndirmək:**

4.3.1. Beynəlxalq reytinqlərdə dünyanın ən yaxşı universitetləri sırasında yer alınmasını təmin etmək;

4.3.2. Reytinq cədvəllərində önəmli olan göstəricilər üzrə mövqeyimizi möhkəmlətmək üçün uyğun resurslarla (maliyyə, insan və s.) təmin etmək.

**4.4. Universitetdə formalaşmış beynəlmiləl mühitin inkişafını davam etdirmək:**

4.4.1 Əcnəbi tələbələrin inteqrasiyasını sürətləndirən mexanizmlərin təkmilləşdirilməsini təmin etmək;

4.4.2. Müxtəlif ölkələrdən əcnəbi tələbələrin sayını hər il artırmaq.

## Strateji hədəf 5: Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat, cəlbedici təhsil məkanına çevirmək.

**5.1. Universitetin infrastrukturunun inkişafını əlçatanlıq, rahatlıq və innovativlik prinsiplərinə və standartlarına uyğun olaraq davam etdirmək:**

5.1.1. Müasir standartlara cavab verən yeni kampus konsepsiyasının hazırlanmasını təmin etmək;

5.1.2. Mövcud kampuslarda maddi-texniki bazanı inkişaf etdirmək;

5.1.3. Prioritet sahələri müəyyən edib müasir avadanlıqlarla təchiz olunan laboratoriyalar yaratmaq;

5.1.2. Tələbələrin və müəllimlərin müasir tələblərə cavab verən qonaq evi və yataqxana ilə təmin etmək.

**Strateji hədəf 6: Tələbə mərkəzli öyrənmə mühitini tələbələrin yüksək nəticə əldə etməsi üçün təkmilləşdirmək.**

**6.1. Tələbələrin potensialını inkişaf etdirən tələbə dəstək sistemini müntəzəm təkmilləşdirmək və onun keyfiyyətini yüksəltmək:**

6.1.1. Tələbələrin karyera irəliləyişi ilə bağlı işin təşkilini təkmilləşdirərək, hər bir tələbə üçün daha çox istehsalat təcrübəsi və iş imkanlarının aşkarlanmasını təmin etmək;

6.1.2. Tələbələr üçün peşəkar inkişaf yönümlü təlimlərin, seminarların, görüşlərin, istehsalat turlarının vaxtı-vaxtında və səmərəli təşkilini təmin etmək;

6.1.3. Tələbələrin əqli, ruhi və fiziki sağlamlığına dəstək olacaq qabaqlayıcı tədbirləri mütəmadi və davamlı təşkil etmək;

6.1.4. Tələbə məclisinin, müxtəlif tələbə klublarının və məşğələlərinin inkişafı üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;

6.1.5. Tələbələrin sosial aktivliyini və məsuliyyətini artırmaq üçün müxtəlif sosial tədbirlər və layihələr həyata keçirərək onların könüllü sosial fəaliyyətə cəlb edilməsini təmin etmək.

**6.2 Tələbələrin öyrənməsi üçün uyğun mühit və resursların təşkilini təkmilləşdirmək:**

6.2.1. Tələbələrin tədris materialları və elektron resurslarla təmin olunmasını gücləndirmək;

6.2.2. Tədqiqatın gücləndirilməsi üçün beynəlxalq elektron resurslara çıxışları genişləndirmək;

6.2.3. Tələbələr və tədqiqatçılar üçün bu resurslardan düzgün istifadə etməyi və keyfiyyətli məlumat istifadəçisinə çevrilməyi aşılayan silsilə təlimlərin keçirilməsini təmin etmək.

**Strateji hədəf 7: Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.**

**7.1. Universitetin prioritet qoyduğu ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə çoxşaxəli əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək:**

7.1.1. Aparılan və planlaşdırılmış tədqiqat sahələri üzrə şirkətlərlə anlaşmanın sayını (20-ə) artırmaq;

7.1.2. Hər bir departamentin bu əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün rolunu aydınlaşdırmaq və uyğun təlimatlarla təmin etmək;

7.1.3. Departamentləri bu işləri keyfiyyətli yerinə yetirməsi üçün mərkəzləşdirilmiş dəstəklə təmin etmək.

**7.2. Universitetdə innovasiya və sahibkarlığın inkişafını gücləndirmək:**

7.2.1. İnnovasiya və sahibkarlığın inkişafı üçün müxtəlif mənbələrdən maliyyənin cəlb olunmasını təmin etmək;

7.2.2. Təhsildə innovasiya və sahibkarlıq mövzusunun vacibliyi haqqında tələbə, professor-müəllim heyətləri arasında təbliğ-təşviq kampaniyası təşkil etmək;

7.2.3. Tələbə, professor-müəllim heyətinin innovativ və sahibkarlıq ideyalarını həyata keçirmək üçün dəstəklə təmin etmək;

7.2.4. İnnovasiya və sahibkarlıq imkanlarını genişləndirmək məqsədilə şirkətlərlə əməkdaşlığı gücləndirmək üçün departamentləri bu işə yaxından cəlb etmək.